**SƏRNİŞİNLƏRİN İCBARİ FƏRDİ QƏZA SIĞORTASI HAQQINDA**
**"İCBARİ SIĞORTALAR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDAN ÇIXARIŞ**

**Maddə 5.3.** Mülkiyyətində sərnişin daşıma xidmətlərini həyata keçirmək üçün nəqliyyat vasitəsi olan və ya ona faktiki sahibliyi həyata keçirən şəxs həmin nəqliyyat vasitəsi ilə bağlı sərnişinlərin icbari fərdi qəza sığortası müqaviləsi bağlamaq üçün sərnişinlərin icbari fərdi qəza sığortası növünün aparılmasına icazəsi olan hər hansı sığortaçını seçməkdə sərbəstdirlər.

**Maddə 64.1.** Sərnişinlərin icbari fərdi qəza sığortası sərnişin daşımaları xidmətini həyata keçirən hava, su, dəmiryolu və avtomobil nəqliyyatı vasitələrində olan sərnişinlərin həyatına və sağlamlığına sığorta hadisəsi nəticəsində zərər dəyməsinə görə sığorta təminatının verilməsi məqsədi ilə tətbiq edilir.

**Maddə 65.1.**Azərbaycan Respublikasının ərazisində, həmçinin xarici ölkələrə və ya xarici ölkələrdən qanunvericilikdə müəyyən edilmiş qaydada sərnişin daşıma xidmətlərini həyata keçirmək üçün mülkiyyətində nəqliyyat vasitəsi olan və ya belə nəqliyyat vasitəsinə faktiki sahibliyi həyata keçirən, həmçinin onu icarəyə götürmüş, yaxud digər qanuni əsaslarla istismar edən fiziki və hüquqi şəxslər nəqliyyat vasitələrinin sahibləri hesab olunurlar.

**Maddə 66.1**. Nəqliyyat vasitəsi sərnişin daşıma xidmətini yerinə yetməsi ilə əlaqədar hərəkətdə olarkən və ya bu məqsədlə dayanacaqlarda (hava limanlarında, dəniz, dəmiryolu və ya avtobus vağzallarında, stansiyalarında, platformalarında və ya körpülərində) olarkən sığorta olunmuş sərnişinin nəqliyyat vasitəsində olduğu müddət ərzində sığorta risklərinin baş verməsi, yəni nəqliyyat vasitəsinin istismarı ilə əlaqədar sərnişinin bədən üzvlərinin, toxumalarının zədələnməsi nəticəsində yüngül və ya ağır xəsarət alması, əmək qabiliyyətini tam və ya qismən itirməsi, yaxud ölməsi faktı sığorta hadisəsi hesab edilir.

**Maddə 32.** Sığortaçı Sərnişinlərin icbari fərdi qəza sığortası şəhadətnaməsi …üzrə sərnişinlərin sağlamlığına dəyən zərərlə bağlı öhdəliklərini ödəmə qabiliyyətinin olmamasına görə yerinə yetirə bilmədikdə, zərərin əvəzi sığorta olunanın müraciəti əsasında İcbari Sığorta Bürosu tərəfindən kompensasiya ödənişi verilməklə ödənilir.